# Əsgərlərin döyüş ruhu qələbəmizə inam yaradır



Cəbrayıl rayon Mədəniyyət və Turizm Şöbəsinin kollektivi döyüş bölgəsində yerləşən "N" saylı hərbi hissənin şəxsi heyəti ilə əməkdaşlıq edir. Şöbədə yaradılan bədii özfəaliyyət kollektivlərinin hər dəfə hərbi hissəyə gəlişi zabit və əsgərlər tərəfindən sevinclə qarşılanır. Bu dəfə də belə oldu. Hərbi hissənin zabiti Azər Əhmədov qonaqları səmimi salamlayıb döyüşçülərin daima yüksək əhval-ruhiyyədə olub düşmənin qəfil hücumlarını igidliklə dəf etmələrindən, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında ordumuzun günbəgün möhkəmlənib dünyada ən güclü ordular sırasına daxil olmasından söz açdı. Böyük Mərcanlı Uşaq Musiqi Məktəbinin direktoru Vidadi Orucov Silahlı Qüvvələrimizin keçdiyi şərəfli yoldan danışdı. Musiqiçilər kollektivinin bədii rəhbəri, istedadlı müğənni Sədaqət Ağayev xüsusi olaraq qeyd etdi ki, əsgərlərin döyüş ruhunun güclü olması qələbəmizin yaxında olması deməkdir:

–Musiqi insanları gələcəyə səsləyir, qələbə əzmini möhkəmləndirir, ürəklərdə xoş duyğular yaradır. Biz də bu gün dostlarımızın yanına əliboş gəlməmişik.

Konsert proqramı 6 saylı qəsəbə klubunun müdiri Hüseyn Xudiyevin döyüşçülərə həsr etdiyi "Əsgərim" şeiri ilə başladı. Fərman Rzayevin, Vətən Abdullayevin, Tofiq Rzayevin ifa etdiyi mahnı və muğamlar alqışlarla qarşılandı. Döyüşçülər də musiqi alətlərində öz istedadlarını nümayiş etdirib rəqsə qoşuldular, mahnılar səsləndirdilər. Musiqi sədaları ətrafa yayıldıqca, alqışlar ara vermədi.



Sonda hərbi hissənin zabiti Azər Əhmədov xeyli məsafə qət edib döyüşçülərə qonaq gəldiklərinə və maraqlı konsert proqramı ilə çıxış etdiklərinə görə Cəbrayıl rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Kamran Quliyevə şəxsi heyətin təşəkkürünü bildirdi. Musiqi kollektivləri "N" saylı hərbi hissənin fəxri fərmanı ilə təltif edildi.

**Tofiq HÜSEYN,**
**"Respublika".**